## İdman xəbərləri

# «Qəbələ» heç-heçə ilə başladı

Türkiyənin Antalya şəhərində təlim-məşq toplanışında olan "Qəbələ" yoxlama oyunu keçirib. 2018-ci ilin ilk sınağında komandamızın rəqibi "Akhisar Bələdiyyəspor" olub. "Qəbələ"nin Türkiyə Superliqasında çıxış edən rəqiblə bərabər mübarizə şəraitində keçən oyunun 17-ci dəqiqəsində Akhisar təmsilçisinin legioneri Serjinyo fərqlənib. Qarşılıqlı hücumlarla davam edən ilk yarıda hesab dəyişməyib.



İkinci hissənin əvvəllərində "Qəbələ" qol sevinci yaşayıb. Filip Ozobiç 57-ci dəqiqədə hesabda bərabərlik yaradıb. Bu, həm də matçın yekun nəticəsi olub.

Beləliklə, 2017-2018-ci illər mövsümünün ikinci yarısına hazırlıq prosesində baş tutan ilk yoxlama oyunu 1:1 hesabı ilə başa çatıb.

# Əvəzedicilər hazırlığa start verdi

"Qəbələ"nin əvəzedicilərdən ibarət komandası 2017-2018-ci illər mövsümünün ikinci yarısının hazırlıqlarına start verib. Komandamız çempionatın 3-cü dövrəsinə yeni baş məşqçi Emin İmaməliyevin rəhbərliyi altında hazırlaşır.



Əvəzedicilərin qış fasiləsindəki ilk yoxlama oyununun tarixi və rəqib komanda da müəyyənləşib. Komandamız I divizion təmsilçisi "Ağsu" ilə üz-üzə gələcək. Yanvarın 14-də baş tutacaq matç Qəbələ şəhər stadionunda keçiriləcək.

## Şəfalı meyvələr

# Narın faydası

İnsan üçün ən xeyirli bitkilərdən biri olan nar A, C, B, P,E vitaminləri və kalium, kalsium, yod, mis, dəmir və s. mikroelementlərlə olduqca zəngindir.

Narda olan antioksidantlar orqanizmə müxtəlif zərərli maddələrlə (şlaklar, toksinlər) mübarizə aparmağa kömək edir, insanı cavanlaşdırır. Tədqiqatçılar narın xərçəngin profilaktikasında böyük rolu olduğunu qeyd edirlər.

Nar insanın ürək-damar, mədə-bağırsaq, immun sistemlərinə çox müsbət təsir edir, qanda hemoqlobinin səviyyəsini artırır. Eləcə də bu meyvə qurdqovucu təsirə malikdir.

O, qan təzyiqini və qanda olan qlyükozanın səviyyəsini aşağı salmaqla hipertonik və diabetiklər üçün çox xeyirlidir.

İnsanın iştahasını artıran nar şirəsindən infeksion xəstəliklərdən və cərrahi əməliyyatlardan



sonra istifadə edilməsi orqanizmin tez bir zamanda bərpa olunmasına kömək edir.

Nar iltihabəleyhinə təsirə malik olduğuna görə stomatit, tonzillit (angina) və s. infeksiya, virus və bakteriyalar tərəfindən törədilən xəstəliklər zamanı istifadə oluna bilər. Bunun üçün ılıq şəkildə olan suya qarışdırılmış nar şirəsi ilə ağız boşluğunu və boğazı qarqara etmək lazımdır.

İshal zamanı narın qabıqlarını qaynadıb gün ərzində 3-4 dəfə içmək çox yaxşı nəticə verir.

Lakin bunu da bilmək lazımdır ki, bəzi xəstəliklər zamanı nar və nar şirəsinin istifadəsi qadağandır. Mədə və onikibarmaq bağırsağın xorası, qastrit, pankreatit, tez-tez təkrar olunan qəbizliklər bu xəstəliklərin sırasındadır.

# Bilirsinizmi?

***✤Yer kürəsinin üç ən dərin mağarası yerləşir.***

***✤Avstraliyada ən böyük iki şəhərin—Sidney və Melburnun hansının paytaxt olması haqqında yekun qərara gələ bilmədikləri üçün, dövlət tərəfindən paytaxt kimi hər iki şəhərdən eyni məsafədə yerləşən Kanberra şəhəri salınıb.***

***✤Nepal dövlət bayrağı düzbucaqlı şəklində olmayan yeganə ölkədir.***

***✤Təmiz su -33°C-dək donmur, +200°C-dək isə qaynamır.***

***✤Riyaziyyatda minilliyin məsələləri siyahısına salınan hər bir problemin həllinə Kley riyaziyyat institutu tərəfindən bir milyon ABŞ dolları həcmində mükafat vəd edilir.***

***✤1856-cı ildə düzəldilən ilk kompressorlu soyuducu pivələrin sərinləşdirilməsi üçün istifadə edilirdi.***

***✤Nəyin incəsənət adlandırılması cəmiyyətin inkişafı dövründə malik olduğu dəyərləndirmə dərəcəsindən asılıdır.***

***✤Buzun əriməsi üçün 330 coul/kq, dəmirin əriməsi üçün 270 coul/kq istilik həcmi tələb olunur.***

***✤Quşların bədən temperaturu insanın bədən temperaturundan 7-8 dərəcə çox olur.***

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Qəbələ Müalicə-Diaqnostika Mərkəzi aşağıda adları qeyd olunmuş xərc maddələri üzrə katirovka sorğusu**

**E L A N   E D İ R**

1. Dəftərxana və təsərrüfat xərcləri.
2. Mətbəə xərci.
3. İdarənin xərci.
4. Cari təmir xərci
5. Yumşaq inventar xərci
6. İnventar xərci
7. Sair xərc
9. Digər alış və xidmətlər
9. Kommunal və kommunikasiya xərcləri.
10. Mühafizə xərcləri

***Sorğular 5 fevral 2018-ci il tarixə kimi qəbul olunur.***

***Əlaqə telefonu: 024-205-41-58***

**Tender komissiyası**


# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

**qəzetinə**

**2018-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir**

**İllik abunə qiyməti 30 manat, yarımillik abunə qiyməti 15 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.**

**«QƏBƏLƏ» qəzetinin reklam xidməti**

**205-19-14, 205-15-56**


# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Corlu kənd sakini **Məmmədov Mahir Məmmədəli oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 195 nömrəli (kod 40613028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Mirzəbəyli kənd sakini **İbrahimov Xanlar Əhməd oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0890 nömrəli (kod 40613018 ) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin 9 saylı ərazi İdarəsi tərəfindən Nic qəsəbə sakini **Çallati Qrişa Migişiyə** verilmiş RX seriyalı 0994549 nömrəli (reyestr nömrəsi 406013063466 qeydiyyat nömrəsi 1917000456) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış və torpaq sahəsinin planı və ölçüsü haqqında** A seriyalı 122756 nömrəli **sənəd** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Nic qəsəbə sakini **Çallati Qrişa Migişiyə** verilmiş RX seriyalı 0994548 nömrəli (reyestr nömrəsi 406013063467 qeydiyyat nömrəsi 19170004657) **hüquqların dövlət qeydiyyat haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış və torpaq sahəsinin planı və ölçüsü haqqında** A seriyalı 122755 nömrəli sənəd **itdiyi üçün etibarsız sayılır.**

# ALLAH RƏHMƏT ELƏSİN!

SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai İctimai Birliyinin kollektivi AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor

**İLYAS BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir, yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatın kollektivi AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor

**İLYAS BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir, yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir.

Qəbələ Arxeoloji Mərkəzinin kollektivi AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor

**İLYAS BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin kollektivi iş yoldaşları **Əmirfəz Hacıyeva** anası

**AYNA HACIYEVANIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.